

Eldar İsmayıloğlu

* * *

Səni elə geyinmişəm,
Görsən,tanımazsan məni.
Öpüşlərin də soyunmur
Nəmli payız köynəyini.

Qara saçına yazıram
Bu gecənin lal şerini.
Al məni ovcumdan götür,
Gözüm üstə sal yerini...

Mən bu ömrün örtüyüyəm,
Sən bu ömrün pəncərəsi.
Gülümsə ki,külək-külək
Bir az içim sərinləsin..

Səni elə geyinmişəm,
Sən düymələr mən sarıda.
Kimsə sinəmə boylanır,
Mənə azır, sən sarıdan..

Torpaq olsam payıza bax,
Hardasa kədər var imiş.
Gözüm üstən yerini yığ,
Göyün üzü də dar imiş....

* * *

Dərd gündüzlər cücərir,
Gecələr çiçək açır.
Bir mələk əlində şam
Yumub gözünü qaçır.

Hərə bir gözdə dolub,
Aç gözünü, boğuluram.
Deyirlər hamı öləcək,
Hər gün səndə doğuluram..

Gəl aşaq eşq divarını,
Necə aşaq buz üstündən.
Yanıb səpələndim sənə,
Yıxılma, yapış tüstümdən.

Cücər, sarmaş saçlarıma...
Məni də özünə bürü.
Saçlarıma dən də düşdü,
Aç gözünü, səni görüm...

* * *

Yenə də küləklər daşıyır
Yarpaqların ölümünü.
Çırpır zamanın üzünə
Qızılı təbəssümünü.

Kimdi ki,eşqdən yarıyan?
Ağlama öz nəfəsinə.
Yarpaqlar da gözəl ölür
Bir-birinin həvəsinə...

Divar da ovulub gedir,
Şəklimizi unutmağa.
Nə yaxşı ki,pəncərə var,
Gözlərimi ovutmağa.

Xatirələr körpə quş tək,
Sığınıbdı bir küncümə.
Gəl biz də gözəl ayrılaq,
Yanıb kül olaq... öncə mən...

İndi ümid böyüdürəm,
Yeriyə, bəlkə dil aça.
Bir gün dönüb qayıdarsan,
Gülüb,sənə də sirr açar...

*Salyan*